**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AVROPADA GEDƏN MİQRASİYA PROSESLƏRİNİN TƏDQİQİ

İxtisas: 5401.01 – İqtisadi coğrafiya

Elm sahəsi: Coğrafiya

İddiaçı: **İlqar Bəxtiyar oğlu Məmmədov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsi "Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: coğrafiya elmləri doktoru, professor
**Vüsət Əmir oğlu Əfəndiyev**

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Həbibə Bayraməli qızı Soltanova**

Rəsmi opponentlər: coğrafiya elmləri doktoru, dosent
**Məlikməmməd Xanoğlan oğlu Məmmədov**

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Etibar Sənan oğlu Bədəlov**

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Mətanət Ramazan qızı Musayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya Şurası.

Dissertasiya şurasının
sədri: ______________ coğrafiya elmləri doktoru, professor
**Çingiz Niyazi oğlu İsmayılov**

Dissertasiya şurasının
katibi: ______________ coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Sahilə Əbiş qızı Allahverdiyeva**

Elmi seminarın
sədri: ______________ coğrafiya elmləri doktoru, dosent
**Aydın İsmayıl oğlu İbrahimov**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"17" 04 2024

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünyanın ayrı-ayrı regionlarında yerləşən ölkələr təbii-coğrafi şəraitinə, təbii ehtiyatlarına, iqtisadi və sosial-demoqrafik potensialına görə fərqlənir və bu fərqlər davamlı olaraq artır. Yüksək iqtisadi, texniki-texnoloji potensiala və ixtisaslı kadrlara malik olan inkişaf etmiş ölkələr dünya təsərrüfatı sistemində əhəmiyyətli yer tutur. Bununla yanaşı, şəhərləşmənin yüksək inkişaf səviyyəsinə çatması, əhalinin həyat səviyyəsinin və gözlənilən ömür uzunluğunun yüksəlməsi həm təbii artımın zəifləməsinə səbəb olur, həm də yaşlı əhalinin payı artır. Nəticədə həmin ölkələrin sayının artımı ləngiyir və hətta azalır.

Yüksək inkişaf səviyyəsinə çatmış Avropa uzun müddətdir ki, dünyanın ən çox miqrant qəbul edən regionu kimi tanınır. Elm, texnologiya və rifah cəhətdən geri qalan ölkələrdən hər il yüz minlərlə insan daha yüksək gəlirli iş dalınca Avropaya üz tutaraq region ölkələrindəki demoqrafik proseslərin iştirakçısına çevrilir. Miqrantlar gəldikləri ölkədə qalıb işləyir, illər keçdikcə onların bir qismi həmin ölkələrin vətəndaşlığını almağa çalışır.

İmmiqrasiya siyasəti və miqrantlarla əlaqədar olan sosial problemlər son onilliklərdə Avropa cəmiyyəti arasında ən çox müzakirə olunan məsələlərdən biridir. Region üçün xarakterik olan miqrasiya probleminin araşdırılması ümumilikdə miqrasiyaların mümkün təsirlərinin, yaranan sosial-demoqrafik problemlərin öyrənilməsi baxımından müasir dövr üçün çox aktualdır. Qərbi Avropada intensivləşən miqrasiya axınlarının, əmək miqrasiyalarının öyrənilməsi, bu proseslərin tənzimlənməsi yollarının müəyyənləşdirilməsi mühüm elmi-nəzəri və praktiki əhəmiyyət daşıyır.

Eyni zamanda, ayrı-ayrı ölkələrdə miqrasiyanın nizamlanması üçün qəbul edilən qanunvericilik bazasının elmi-nəzəri əsaslarının da təkmilləşdirilməsi baxımından bu kimi tədqiqatlar əhəmiyyətli rol oynayır. Uzun illər bu sahədə tədqiqatların aparılmasına baxmayaraq Avropaya istiqamətlənmiş kütləvi əhali axınını azaltmaq hələ də həll olunmamış problem olaraq qalır. Məlum olduğu kimi, Azərbaycan və Avropa ölkələri arasında da miqrasiya əlaqələri mövcuddur. Bu

baxımdan miqrantların sayının, miqrasiyanın əsas istiqamətlərinin müəyyən edilməsi, miqrantların hüquqlarının qorunması və sosial müdafiəsi, miqrasiyaların nizamlanması və s. istiqamətlərdə elmi-tədqiqat işlərinin aparılması aktual məsələlərdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Avropa regionu, o cümlədən Qərbi və Şərqi Avropa, bu regionun ölkələrindəki demoqrafik və miqrasiya proseslərdir. Tədqiqatın predmeti kimi Avropanın demoqrafik inkişafında baş verən dəyişikliklər, bu prosesdə miqrasiyaların rolunun öyrənilməsi, bu proseslərin nizamlanması yollarının öyrənilməsi, müvafiq elmi-nəzəri əsasları olan, praktiki əhəmiyyətə malik təkliflər və tövsiyələrin hazırlanmasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın aparılmasında **məqsəd** Avropada miqrasiya proseslərinin öyrənilməsi, son illərdə burada iştirak edənlərin sayının artması ilə əlaqədar regionun demoqrafik vəziyyətində baş verən dəyişikliklərin müəyyən edilməsi, əhalinin cins-yaş və milli tərkibinin dəyişməsinin araşdırılmasıdır.

Bu məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələr əsas götürülür:

– Avropa ölkələrində sosial-demoqrafik inkişafa təsir göstərən amillərin müəyyənləşdirilməsi;

– Qərbi və Şərqi Avropa üzrə tarixi-coğrafi inkişaf xüsusiyyətləri ilə əlaqədar baş verən sosial-demoqrafik meyillərin müəyyən edilməsi və onların əsas nəticələrinin öyrənilməsi;

– Avropa ölkələrində miqrasiya proseslərinin təsiri ilə əhalinin cins-yaş tərkibi və təbii artımı ilə bağlı baş verən dəyişikliklərin, yaranan problemlərin öyrənilməsi, onların aradan qaldırılmasına dair təkliflərin hazırlanması;

–Avropadakı xarici miqrasiyaların əsas mərhələlərinin müəyyənləşdirilməsi, tarixi-coğrafi dövrlər üzrə əhali axınlarının əsas istiqamətlərinin təhlili, müasir dövrdə miqrasiyaların səciyyəvi xüsusiyyətlərinin tədqiq edilməsi;

– Son vaxtlarda Şimali Afrika və Yaxın Şərq ölkələrindəki ictimai-siyasi hadisələr nəticəsində baş vermiş miqrasiya

proseslərinin Avropaya yönələn insan axınlarına təsiri, bu təsirin əsas nəticələrinin və əlaqədar problemlərin öyrənilməsi;

– Azərbaycandan Avropaya istiqamətlənən əhali miqrasiyasının öyrənilməsi, onun əsas mərhələlərinin, müasir vəziyyətinin və əsas istiqamətlərinin müəyyən edilməsi;

**Tədqiqatın metodları.** Avropada gedən miqrasiya prosesləri statistik təhlil, tarixi-coğrafi yanaşma, kartoqrafik, müqayisəli təhlil, ümumiləşdirmə kimi üsullardan istifadə edilməklə öyrənilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**.

1. Avropa ölkələrindəki demoqrafik inkişafın müasir vəziyyətinin, səbəb olan amillərin, bununla əlaqədar baş verən əsas meyillərin qiymətləndirilməsi;

2. Qərbi və Şərqi Avropa ölkələrində, o cümlədən MDB məkanı ölkələrində baş verən miqrasiya proseslərinin demoqrafik inkişafda oynadığı rolun, miqrasiya proseslərinin baş verməsinə şərait yaradan amillərin və bu proseslərin yaratmış olduğu problemlərin müəyyən edilməsi;

3. Avropa regionunda, eləcədə Azərbaycandan Avropaya doğru miqrasiya axınları ilə bağlı vəziyyətin təhlili və son illərdə bununla bağlı baş verən meyillərin tədqiqi.

4. Avropadakı miqrasiyaların nizamlanması istiqamətlərinin, region dövlətlərinin qəbul etdiyi qanunvericilik bazasının miqrasiyaların idarə edilməsindəki rolunun tədqiqi;

**Tədqiqatın elmi yeniliyi**:

- Avropada demoqrafik inkişafın əsas göstəriciləri tədqiq edilmiş, onların dəyişməsinə ciddi təsir göstərən amillər qarşılıqlı, müqayisəli şəkildə öyrənilmişdir;

- Şərqi və Qərbi Avropanın demoqrafik inkişafında olan fərqlər, onların səbəbləri və mövcud inkişaf meyllərində olan problemlər öyrənilmişdir;

- Avropa və MDB məkanına, həm də Azərbycanla miqrasiya əlaqələri olan ölkələr tədqiq edilmiş, onların hər iki regionda yaratdığı problemlərin təhlili aparılmışdır;

- Avropa ölkələrinin miqrasiya proseslərinin tənzimlənməsi ilə bağlı strategiyaları təhlil və müqasiyə etməklə miqrasiyaların səmərəli idarə olunması sahəsindəki qərarların yaxın perspektivdə

mümkün təsirləri proqnozlaşdırılmışdır. Şimali Afrika və Yaxın Şərq ölkələrindən gələnlərin tərkibi, sayı, miqrantların regionlara əhalinin cins-yaş və milli-etnik tərkibinə təsiri tədqiq edilmişdir;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada aparılan təhlillərin və ümumiləşmələrin nəticələri mühüm elmi-nəzəri və praktiki əhəmiyyətə malikdir. Onlar dünyanın digər regionlarında yaranmış demoqrafik şəraitin öyrənilməsində istifadə edilə bilər.

Dissertasiyada təhlili aparılan məlumatlar və nəticələr ali və orta təhsil müəssisələrindəki tədris prosesində, miqrasiyaya dair qanunvericilik aktlarının hazırlanmasında, miqrasiya proseslərinin öyrənilməsində mənbə rolunu oynayır.

Azərbaycan və Avropa ölkələri arasında olan miqrasiya əlaqələrinin öyrənilməsi mühüm elmi-nəzəri əhəmiyyət kəsb edir.

**Aprobasiyası və tətbiqi**. Dissertasiya işinin əsas nəticələri aşağıdakı konfranslarda məruzə edilmişdir:

* "İnsan və ətraf mühit" münasibətləri mövzusunda elmi konfrans, Bakı, 2017.

* "Əmək, məşğulluq və sosial müdafiənin aktual məsələləri" mövzusunda beynəlxalq elmi-pratiki konfransın materialları, Bakı, 2017.

* "Azərbaycanda sosial müdafə sistemin inkişafı - dünən, bu gün, sabah" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, Bakı, 2019.

* "The past and the Future of the Turkic world", Kazakhstan, Nur-Sultan, 2021.

Tədqiqat işinin mövzusuna dair 17 elmi məqalə və tezis çap edilmişdir.

**Problemin öyrənilməsi səviyyəsi**. Avropada miqrasiya prosesləri daim Beynəlxalq təşkilatlar, o cümlədən BMT-nin Əhali Fondu, Aİ, ayrı-ayrı ölkələrdə olan Statistika İdarələri, elmi-tədqiqat mərkəzləri tərəfindən öyrənilmişdir. Ayrı-ayrı alimlərin əsərlərində Avropada demoqrafik inkişafın əsas meylləri tədqiq edilmişdir. Bu proseslər Rusiya, ABŞ, Ukrayna, o cümlədən Azərbaycanda da öyrənilmişdir.

Bununla yanaşı, son dövrlərdə regiona gələn miqrantların

sayında və tərkibində ciddi dəyişikliklər olmuşdur. Onlar Avropanın demoqrafik vəziyyətinə və göstəricilərin dinamikasına ciddi təsir göstərir. Ona görə də yaranmış vəziyyətin öyrənilməsi və bu istiqamətdə elmi-tədqiqat işlərinin aparılması vacibdir.

**Tədqiqatın informasiya bazası və məlumat mənbələri.** Tədqiqatın aparılması üçün BMT-nin Əhali Fondunun (UNFPA) hesabatlarından, MDB ölkələri üzrə Mərkəzi Statistika İdarəsinin materiallarından, Aİ hesabatlarından istifadə edilmişdir. Eyni zamanda Rusiya Federasiyası və Belarus Respublikasının statistika komitələrinin məcmuələri, ayrı-ayrı ölkələrin demoqrafiya və əhali haqqında illik statistika hesabatları mənbə rolunu oynamışdır.

Tədqiqat prosesində miqrasiyaların öyrənilməsi sahəsində Avropa, o cümlədən MDB ölkələri, ABŞ alimlərinin əsərlərində olan elmi-nəzəri və metodiki müddəalardan, BMT, Aİ, MDB təşkilatlarının qərarlarından, qətnamələrindən və proqramlarında olan müddəalardan istifadə edilmişdir. Dissertasiyanın hazırlanması zamanı AMEA-nın Coğrafiya, İqtisadiyyat İnstitutlarının hesabatları və fond materialları istinad mənbələri olmuşdur.

Eyni zamanda iddiaçının uzun illər ərzində Avropada miqrasiya prosesləri haqqında topladığı məlumatlardan istifadə olunmuşdur. Təhlillərin aparılması üçün onlara məlumat mənbəyi kimi istinad edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universiteti Coğrafiya fakültəsinin "Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi, quruluşu və əsas məzmunu.** Dissertasiya işi giriş – 8681 işarə sayı; o cümlədən I fəsil – 63851 - işarə sayı; II fəsil - 144031 - işarə sayı; III fəsil - 50637 işarə sayı; nəticə və istifadə olunmuş ixtarların sayı- 3477. 137 adda istifadə olunmuş ədəbiyyat siyahısından, 15 cədvəl, 13 xəritə-sxem və şəkildən ibarətdir. Dissertasiya işi xəritəsiz, cədvəlsiz və şəkilsiz 270729 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqat işinin məqsədi, vəzifələri, predmeti müəyyən edilir, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliklər, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi verilir.

Dissertasiyanın "**Əhali miqrasiyasının öyrənilməsinin əhəmiyyəti və nəzəri-metodiki əsasları**" adlı birinci fəslində əhali miqrasiyasının ümumi məsələləri araşdırılır, miqrasiya problemi tarixi, demoqrafik, iqtisadi, sosial-siyasi və s. aspektlərdən təhlil edilir.

Bu fəsildə miqrasiyaya müxtəlif baxışlar və yanaşmalar şərh olunur, miqrasiyaya təsir göstərən və eləcə də onun səbəb olduğu proseslər araşdırılır. Qeyd olunan bu məsələlər həm bütün Avropa regionu kontekstində, həm də regionun ayrı-ayrı ölkələrinin miqrasiya və demoqrafiya siyasəti təcrübəsinə müraciət edilməklə təhlil edilir.

Tədqiqat ərazisi olan Avropada miqrasiya prosesləri bu regionun əksər ölkələri üçün eyni olan ümumi cəhətlərlə səciyyələnir, həmçinin iqtisadi-coğrafi şəraitdən, iqtisadi və demoqrafik inkişaf potensialından asılı olaraq hər bir ölkədə müxtəlif cür təzahür edir.

Ümumən Qərbi Avropa ölkələrinə beynəlxalq əhali axınlarına sərhədlərin açılması, miqrasiya proseslərinin maneəsiz şəkildə getməsinə imkan verən coğrafi məkanın genişlənməsi, ali təhsil almaqda maraqlı olan əcnəbilər üçün cəlbedici olma, yüksək həyat şəraitinin mövcudluğu, ixtisasa uyğun işləmək imkanları, geri qalmış regionların mənimsənilməsi ilə əlaqədar miqrantlara ehtiyacın olması və s. kimi amillər təsir göstərir. Bu məsələlər birinci fəsildə geniş təhlil olunur.

2000-ci illərin əvvəllərindən başlayaraq Avropa regionundakı miqrasiya axınlarında milyonlarla insan iştirak etmişdir. Şərqi Avropa regionuna aid olan Polşa, Baltikyanı ölkələr, Bolqarıstan, Rumıniya, Balkan ölkələrindən əmək qabiliyyətli yaşında olan əhalinin bir qismi yüksək məvacib axtarmaq və daha yaxşı yaşamaq üçün yaxın qonşu ölkələrə üz tutmuşdur və bu proses hazırda da

davam edir. Bu əhali axınları Almaniya, Fransa və Böyük Britaniya kimi iri ölkələrdə, həmçinin Niderland, Belçika, İsveç, Lüksemburq, Alp ölkələrində əhalinin sayının dəyişməsinə və əhalinin artım tempinə müsbət təsir göstərmişlər. Ölkələr arasında sosial-iqtisadi və demoqrafik inkişaf səviyyəsində olan fərqlər miqrasiyaları doğuran əsas səbəblərdir.

Son bir neçə ildə yüz minlərlə insan kütləvi şəkildə kortəbii olaraq Türkiyədən quru yollarla, Şimali Afrikadan su yolları ilə İtaliyaya, Yunanıstana, oradan Avropanın digər ölkələrinə üz tuturlar. Qəbul edilmiş razılığa əsasən ilkin olaraq miqrant qəbul edən İtaliya, Yunanıstan və Türkiyə ilə yanaşı, digər ölkələr də bu prosesdə iştirak edir. Xarici miqrantların bütün ölkələrdə paylanması vacib şərt kimi irəli sürülür. Lakin mühacirlərin çoxu Almaniya, Fransa və İtaliyada, digər Mərkəzi Avropa ölkələrinə gedib orada qalmağa üstünlük verirlər. Hazırda Şimali Afrika və Yaxın Şərqdən Qərbi Avropaya üz tutan miqrasiya axınlarında nisbi sabitlik yaranmış olsa da, indiyə qədər qəbul edilən miqrantlar region ölkələrində əhalinin sayının dəyişməsinə ciddi təsir göstərmişlər. Onların yerləşdirilməsi, mənzillə, iş yerləri ilə təmin olunması, yerli əhali tərəfindən qəbul edilməsi məsələləri ciddi problemlərə çevrilir.

Miqrasiyalar ölkələrdəki demoqrafik göstəricilərinə əhəmiyyətli təsir göstərir. Bunlara əhalinin cins-yaş tərkibi, şəhər və kəndlərdə yerləşməsi, nikahlar, doğum və təbii artımın dinamikası, milli, dini tərkibi və s. aiddir.

Miqrasiyalar hesabına dəyişikliyə məruz qalan göstəricilərdən biri cins-yaş strukturudur. Avropada uzun müddət immiqrasiya proseslərinin iştirakçıları əsasən kişilər olmuş, son illərdə qadınların payı əvvəlki dövrlərlə müqayisədə artmağa meyillənmişdir. İmmiqrasiya ilə əlaqədar Avropa şəhərlərində, yeni mənimsənilən rayonlarda gənclərin payı yuxarıdır.

Avropada gəlmə əhali arasında gənclərin sayının çoxluğu nikaha daxil olanların sayına da müsbət təsir göstərir. Bu, doğumun və təbii artımın yüksəlməsinə şərait yaradır. Belə vəziyyət immiqrasiya ölkələrində aşağı səviyyədə olan doğumun tənzimlənməsinə əhəmiyyətli təsir göstərir. Avropa ölkələrində nikah yaşı digər regionlarla müqayisədə yuxarıdır, ailələrdə

uşaqların sayı azdır, əksər hallarda bir uşaq olur. Bu isə əhalinin sayının artmasını təmin etmir. Doğum səviyyəsi immiqrant ailələrində daha yüksək olur.

Birinci fəsildə həmçinin ayrı-ayrı alimlərin miqrasiya probleminə, o cümlədən Avropa ölkələrində gedən miqrasiya proseslərinə dair fikirləri, miqrasiyanın nəzəri məsələlərinin və coğrafiyasının öyrənilməsi sahəsində görülmüş mühüm işlər, onların icmalı verilir. Alimlərə istinadən demoqrafik inkişafa müxtəlif amillərin təsir göstərdiyi qeyd olunur.

Bu fəsildə həmçinin demoqrafik inkişafın nizamlanması və əhalinin sayının davamlı artımı, cins-yaş tərkibinin uyğun nisbətinin qorunmasının vacibliyi təhlil edilir. Demoqrafik inkişafa nail olmaq üçün iqtisadi və sosial-mədəni sahələrdə inkişafın təmin edilməsinin vacibliyi göstərilir. Qeyd olunur ki, miqrasiyaların nizamlanmasında və tədbirlər planının işlənib hazırlanmasında əsas çətinliklərdən biri miqrantların qeydiyyatının düzgün aparılmamasıdır.

Avropada belə bir fikir qəbul edilir ki, ölkəyə gələn immiqrantların yeni cəmiyyətə uyğunlaşması, onlar tərəfindən yerli dilin, adət-ənənələrin qəbul edilməsi ilə bağlı müəyyən problemlər olsa da, ikinci nəsil artıq ölkədə böyüyüb boya-başa çatır və onun dünyagörüşü fərqi olur. Yeni nəsil tamamilə ölkə vətəndaşı kimi tərbiyə alır, demoqrafik inkişafda daha fəal iştirak edir, işçi qüvvəsi kimi təsərrüfat sahələrinin tələblərinə müvafiq surətdə ixtisas-peşə bacarıqlarına malik olur.

Təhlillər göstərir ki, fəal demoqrafik siyasət Şərqi Avropa ölkələrində həyata keçirilmişdir. Bu region ölkələrində demoqrafik siyasətin əsas tədbirlərinə gənc ailələrə birdəfəlik kreditlərin təklif olunması, uşaqların doğulmasına görə ailələrə müavinətlərin verilməsi, ailələrdə uşaqların sayı artdıqca müavinətlərin həcminin artırılması aiddir. Həmçinin hamiləlik və doğum dövründə verilən müavinətlərin artırılması, mənzil almaq hüququnda üstünlüklər, uşaq-tərbiyə müəssisələrinin sayının artırılması da bu ölkələrdə demoqrafik siyasət çərçivəsində həyata keçirilən tədbirlər olmuşdur.

Qərbi Avropada da bu istiqamətdə demoqrafik siyasət həyata keçirilmişdir. Burada demoqrafik siyasətin əsas cəhətlərinə ailələrə güzəştlərin tətbiq edilməsi, analara məzuniyyət dövründə uşaqlara

baxmaq üçün müavinətlərin verilməsi, mənzillərlə təminatın asanlaşdırılması və onun dövlət tərəfindən həyata keçirilməsi aiddir.

Dissertasiyanın **"Avropada miqrasiya proseslərinin əsas mərhələləri və istiqamətləri"** adlı ikinci fəslində miqrasiya proseslərinin regional tarix-coğrafi təhlili aparılır, ümumən Avropa regionu və demoqrafik göstəricilərinə görə qruplaşdırılan ayrı-ayrı ölkələr üzrə miqrasiya axınları, beyin axını, kadrlarla təminat, beynəlxalq və daxili miqrasiya axınları ilə bağlı vəziyyət, kənddən şəhərə miqrasiya və s. araşdırılır. Miqrasiyaya təsir göstərən amillər və demoqrafik proseslər, miqrasiya ilə cins-yaş tərkibi arasındakı əlaqə, əhalinin məşğulluq strukturu və qadınların məşğulluğu tədqiq edilir və geniş statistik təhlili aparılır. Bu fəsildə həmçinin region ölkələrində miqrasiya saldosunun dəyişməsi, miqrantların ölkələrin əhalisi arasındakı payı, miqrasiyanın sosial-demoqrafik inkişafa təsiri, Azərbaycandan Avropa ölkələrinə olan miqrasiyalar tədqiq olunur. Avropada dünyanın digər ölkələrinə nisbətən inteqrasiya prosesləri daha intensiv gedir (Şəkil 1).




**Şəkil 1.** Almaniyada təbii artım göstəricilərinin dinamikası

XX əsrin sonu, XXI əsrin əvvəllərində regionda gedən dəyişikliklər yeni müstəqil dövlətlərin yaranmasına, ictimai-siyasi quruluşun dəyişməsinə, əhalinin miqrasiya intensivliyinin yüksəlməsinə səbəb olmuşdur. Baş verən proseslər hazırda da öz təsirini göstərməkdədir. Qitənin bəzi ölkələrində əhalinin artımının əsas hissəsi miqrasiyalar hesabına təmin edilir. Miqrantları çox sayda qəbul edən ölkələrdə əhalnin mütləq sayı da ilbəil artır.




**Şəkil 2.** Avropada miqrasiya saldosu müsbət olan ölkələr, min nəfər

Son illərdə Avropanın müxtəlif ölkələri üzrə miqrasiya proseslərində bir sıra tendensiyalar özünü göstərmişdir. Rusiya Federasiyasında miqrantların kvotaları tələbatdan asılı olaraq artırılır, xarici miqrasiyalar azalmağa doğru gedir. Bu ölkədə aparılan miqrasiya siyasəti kifayət qədər və tələb olunan qaydalara müvafiq xarici miqrantların qəbul edilməsinə şərait yaradır (şəkil 2).

Avropanın və dünyanın ən böyük immiqrasiya ölkələrindən biri olan Almaniyada 90-cı illərin birinci yarısınadək olan dövrdə əhalinin sayı davamlı artmışdır. 90-cı illərdə ölkənin şərqindən qərbinə doğru miqrasiyalar, xarici miqrasiyaların çoxluğu, Avropada və keçmiş SSRİ məkanında yaşayan almanların vətənə qayıtması bu artımın təmin edilməsində böyük rol oynamışdır. XXI əsr Almaniyada əhalinin sayının azalması ilə başlamışdır. Son illərdə

Yaxın və Orta Şərqdə, Şimali Afrikada baş verən hadisələr Avropaya miqrasiya axınını gücləndirmiş, miqrantların əsas hissəsini Almaniya qəbul etmişdir. 1995-2000-ci illərdə əhalinin artımı 918,4 min nəfər olmuş, lakin bu, ölkədə əhalinin azalmasının qarşısını almağa imkan verməmişdir. 2005-2010-cu illərdə əvvəlki dövrdə olduğu kimi, Almaniyada əhalinin sayının azalması qeydə alınmışdır. Bu azalmalar əsasən ölümün doğumdan yüksək olması, miqrasiyaların aşağı enməsi hesabına olmuşdur. 2015-ci ildə başlanan və sonrakı illərdə davam etmiş immiqrasiya dalğası Suriya, İraq, Əfqanıstan kimi ölkələrdən axışıb gələn müharibə qaçqınları ilə əlaqədar baş vermişdir. Təkcə həmin ildə ölkəyə gələnlərin sayı 1 milyon nəfəri keçmiş, ölkə ümumi daxili məhsulunun 0,5%-ni qaçqınların yerləşdirilməsinə sərf etmişdir.

Əhalinin sayının nisbətən sürətlə artmaqda davam etdiyi Fransada təbii artımın mütləq artıma müsbət təsiri böyükdür. Ölkədə əhalinin sayı 2018-ci ildə miqrasiya hesabına 67,7 min nəfər artmışdır. Əhalinin sayının artmasında təbii artımla yanaşı, miqrasiyanın payı bir sıra ölkələrlə müqayisədə nisbətən çoxdur. Təbii və miqrasiya artımlarının əhali artımındakı payı müvafiq olaraq 76,9% və 23,1% təşkil etmişdir[1]. Fransada xarici miqrantların cəmiyyətə uyğunlaşması ciddi problem olaraq qalır. Digər Avropa ölkələrinə nəzərən Fransada müsəlman əsillilərin, vaxtilə ərəb ölkələrindən buraya köçmüş miqrantların nəsillərindən olanların xüsusi çəkisi yuxarıdır. Həmin qrup əhalinin demoqrafik inkişafa, əhalinin artımına verdiyi töhfə çox böyükdür.

Böyük Britaniya Qərbi Avropada əhalisinin sayı davamlı olaraq artan ölkələrindəndir. Burada təbii artımın rolu nisbətən aşağıdır. Əhalinin mütləq artımında immiqrantlar mühüm rol oynayır. 2019-ci ildə əhali artmasının 54,9%-i təbii artım, 45,1%-i xarici miqrasiyanın hesabına getmişdir. 60-cı illərin sonu, 70-ci illərin əvvəllərində miqrasiyaya dair qəbul edilmiş məhdudiyyətlər immiqrantların sayını azaltmış olsa da, regionun digər ölkələrinə nisbətən Böyük Britaniyada xarici miqrasiya hesabına əhali artımı yüksək göstəricilərə malikdir.

---

[1] Беларусь и страны мира. Статистический сборник / – Минск, – 2020. – 389 с.

Britaniyada immiqrantlara münasibətdə məhdudiyyətlərin tətbiq edilməsinə baxmayaraq, "üstünlük" prinsipləri əsas götürülərək ölkəyə hər il bir neçə yüz min nəfərdən çox xarici vətəndaş qəbul edilir. İmmiqrantlar arasında cavanlar böyük əksəriyyət təşkil edir. Britaniyaya Asiya ölkələrindən, o cümlədən onun keçmiş müstəmləkəsi olmuş ingilisdilli ölkələrdən miqrasiyalar davam etməkdədir. Xarici miqrantlar arasında cavanlar əhalinin böyük əksəriyyətini təşkil edir. Onlar arasında təbii artım yüksək olaraq qalır. Ona görə də hesab etmək olar ki, yaxın onilliklərdə də ölkədə əhali artımı aşağı səviyyədə olması gözlənilir.

Avropanın digər böyük ölkəsi İtaliyada 2000-ci ildən sonra əhalinin sayı davamlı olaraq artmışdır. Lakin ölkədə demoqrafik problem, xüsusən təbii artımın aşağı olması ciddi məsələ olaraq qalır. Əhalinin sayı demək olar ki, xarici miqrasiyalar hesabına çoxalır. 2000-ci ildə ölkədə xarici miqrasiya saldosu 210,4 min nəfər, 2015-ci ildə 260,6 min nəfər, 2019-ci ildə 143,8 min nəfər təşkil etmişdir. Son zamanlarda ölkəyə gələnlərin sayı xeyli artmışdır.

İtaliya Şimali Afrika və digər Avropa ölkələri arasında tranzit rolunu oynayır. Regiona gələnlərin çox hissəsi isə bu ölkədə qalır. Bu amil İtaliyada əhalinin sayının əsas artım mənbəyi rolunu oynayır. Hesablamalar göstərir ki, ölkədə miqrasiya saldosunun orta illik kəmiyyəti 210-250 min nəfər arasında dəyişir[2].

XXI əsrin ilk onilliyində İspaniyada əhali artımında müsbət tendensiya müşahidə olunsa da, sonrakı dövr üçün ayrı-ayrı illərdə əhalinin sayı demək olar ki, sabit qalmış və ya azalmışdır. Ölkədəki iqtisadi çətinliklər, iş yerləri ilə təminatda olan problemlər, həyat səviyyəsinin aşağı düşməsi insanların ölkədən çıxıb getməsinə səbəb olur. Onların əsas hissəsi Orta Avropa ölkələrinə köçür. İspaniyada təbii artımın mənfi kəmiyyətlər alması, yəni azalması, əhalinin ölkədən miqrasiyası ölkə əhalisinin sayına mənfi təsir göstərir. Nəticədə 2010-cu ildən sonrakı illərdə əhalinin sayı artmamış, göstərici 2011-ci ildə 46,7 mln. nəfər, 2015-ci ildə isə 46,6 mln. nəfər olmuşdur.[2]Иммиграционная политика западных стран:

---

[2] Иммиграционная политика западных стран: альтернативы для России / Под ред. Г.Витковской. – М., – 2003. – 264 с.

альтернативы для России / Под ред. Г.Витковской. – М., – 2003. – 264 с.

Ukrayna Avropada demoqrafik böhranın müşahidə edildiyi əsas ölkələrdən biridir. Müstəqilliyin ilk illərində iqtisadi çətinliklər, əhalinin həyat səviyyəsinin aşağı düşməsi, son illərdə Rusiya ilə münasibətlərin çox gərgin olması, sonra isə iki ölkə arasında müharibənin baş verməsi demoqrafik inkişafa mənfi təsir göstərmişdir. Təbii artım azalmış, xaricə miqrasiya artmışdır. 2000-2010-cu illərdə əhalinin sayı il ərzində orta hesabla 300 min nəfərə qədər, 2011-2015-ci illərdə 550-600 min nəfər azalmışdır. Ukrayna əhalisinin sayı 2011-2015-ci illərdə 2851 min nəfər və ya 6,3% aşağı enmişdir[3]. 2011-2014-cü illərdə ölkəyə gələnlərin sayı 141,2 min nəfərdən çox, 2018-ci ildə 20,2 min nəfər olmuşdur.




**Şəkil 3**. Avropada miqrasiya saldosu mənfi olan ölkələr, min nəfər

Şərqi Avropada Rusiya və Ukraynadan sonra əhalisinin sayına görə üçüncü ölkə olan Polşada ciddi demoqrafik böhran müşahidə olunur və bu, hökuməti demoqrafiya sahəsində mühüm tədbirlər

[3] Население Украины за 2018 год. Демографический ежегодник. Государственная Статистическая Служба Украины. / – Киев, – 2019. – 134 с.

görməyə vadar edir. Miqrasiya mənfi saldoya malikdir. Polşanın Avropa Birliyinə üzv qəbul edilməsindən sonra xarici miqrasiyalar daha intensiv xarakter almışdır. 2011-2019-ci illərdə ölkəni 1086,2 min nəfər tərk etmiş, miqrasiya saldosu –269,0 min nəfər olmuşdur (şəkil 3).

Niderlandda əhalinin sayının artması əsasən miqrasiya hesabına formalaşır, amma immiqrant əsillilər də təbii artıma böyük töhfə verirlər. Son vaxtlarda ölkədə xarici miqrantların illik qəbulu 20-30 min nəfərə yaxın, əhali artımı isə 15-20 min nəfər olmuşdur. Bu mənbələr ölkədə əhalinin sayının artımını təmin edir[4].

Yunanıstanda baş verən iqtisadi böhran səbəbindən əhali kütləvi şəkildə ölkədən köçür. Belçikada isə vəziyyət əksinədir. Ölkə Avropada əsas miqrasiya mərkəzlərindən birinə çevrilmişdir. Burada ildə 50-60 min nəfər mexaniki artım qeydə alınır ki, bu da öz təsirini əhalinin sayının davamlı olaraq artmasında göstərir. Bolqarıstan, Macarıstan və Belarusda təbii azalmalar və xarici miqrasiyaların yüksək göstəriciləri əhalinin sayının azalması ilə nəticələnmişdir. Nisbətən kiçik ölkələr olan Danimarka, İrlandiya və Sloveniyada aşağı səviyyədə olan təbii artım və xarici miqrantların qəbul edilməsi əhalinin sayının artmasını təmin edir. İrlandiya Avropada ən yüksək təbii artım göstəricilərindən birinə malik olsa da, əhali axını da baş verir. Ayrı-ayrı illərdə onun kütləvi xarakter alması əhalinin sayının azalmasına səbəb olmuşdur. Baltikyanı ölkələr olan Latviya, Litva və Estoniyada müstəqillik illərində ciddi demoqrafik böhran yaşanmışdır. Bu ölkələrdə kütləvi xarakter daşıyan xaricə axın əhalinin sayının azalmasına gətirib çıxarmışdır.

Beləliklə, XX əsrin sonu, XXI əsrin əvvəllərindən etibarən Avropada əhalinin təbii artımı aşağı enmiş, demoqrafik vəziyyət əlverişsiz olmuşdur. Bu baxımdan miqrantların qəbulu regionda əhalinin azalmasının qarşısının alınması üçün olduqca zəruri amilə çevrilmişdir.

Avropa ölkələrində miqrasiyanın tənzimlənməsi üçün böyük əhəmiyyət kəsb edən praktiki tədbirlərdən biri əmək miqrantlarının ölkə iqtisadiyyatlarının müxtəlif sahələrinə geniş surətdə cəlb

---

[4] Официальный сайт Евростата / http://epp.eurostat.ec.europa.eu/.

edilməsidir. XX əsrin sonunda bu ölkələrdə 25 mln. nəfərə qədər işçi qüvvəsi miqrant olmuşdur. Onların yarısı inkişafda olan ölkələrdən gələnlərdir. Xarici işçi qüvvəsinin cəmləndiyi əsas mərkəz Qərbi Avropa ölkələri, ilk növbədə "böyük üçlük" olan Almaniya, Fransa və Böyük Britaniyadır. Bu ölkələrdə 12-13 mln. nəfərə qədər xarici işçi qüvvəsi və vətəndaşlığı olmayan insanların toplandığı güman edilir. Əmək miqrantlarının çıxıb getdiyi ölkələrdə kütləvi kadr çatışmazlığı yaranmış, baş verən proseslərin idarə edilməsi mümkün olmamışdır.

İkinci fəslin sonunda Azərbaycan Respublikasının Avropa ölkələri ilə miqrasiya əlaqələri tədqiq edilir. Azərbaycanın miqrasiya əlaqələrində uzun illər Rusiya əhəmiyyətli yer tutmuşdur. Digər MDB ölkələri olan Ukrayna, Moldova və Belarus Respublikaları da Azərbaycanla olan miqrasiya əlaqələrində mühüm rol oynamışdır. Avropaya gələn əhalinin sayı nisbətən az olmuşdur [15, 76, 101].

1990-1995-ci illərdə Azərbaycandan miqrasiya axınları yüksək olmuşdur. Ona görə əksər ölkələr üzrə mənfi miqrasiya saldosu qeydə alınmışdır. Onun əsas hissəsi Rusiyanın payına düşür. Bu dövrdə Rusiya ilə olan miqrasiya saldosu –120,0 min nəfərə yaxın, Ukrayna ilə –20,1 min nəfər, Belarus ilə əlaqələrdə –3,7 min nəfər olmuşdur [1, s.300-301; 9, s.55]. 1996-2000-ci illərdə miqrasiyalar nisbətən azalmışdır. Ona görə də gələnlər və gedənlər arasındakı fərqlər (saldo) kiçik kəmiyyətlər almışdır. Bu dövrdə Rusiya ilə əlaqələrdə miqrasiya saldosu –30,3 min nəfər, Ukraynada –1,5 min nəfər, Belarus ilə əlaqələrdə –437 nəfər olmuşdur. Almaniya ilə miqrasiya əlaqələrində gedənlərin sayı çoxluq təşkil etmiş, 1996-2000-ci illərdə miqrasiya saldosu –720 nəfər təşkil etmişdir. Digər ölkələrə gedənlər və gələnlərin sayı nisbətən az olmuşdur.

2000-ci illər miqrasiyanın zəif getməsi ilə fərqlənir. Bu, həmin dövrdə miqrasiyaların intensivliyi azalmış, kəndlərdə əhalinin sayının azalması, digər millətlərdən olanların artıq ölkəni tərk etməsi kimi amillərlə əlaqədar olmuşdur. 2001–2005-ci illərdə Rusiya ilə miqrasiya əlaqələrində saldo –11,1 min nəfər, Ukrayna üzrə –303 nəfər, Belarus Respublikası üzrə – 476 nəfər qeydə alınmışdır. 2000-ci illərin birinci yarısında Almaniyaya gedənlərin sayı çox olmuşdur. Ona görə miqrasiya saldosu –228 nəfər təşkil etmişdir. Digər

ölkələrlə miqrasiya əlaqələrində iştirak etmiş əhalinin sayı azdır. 2006-2010-cu illərdə miqrasiya saldosu Rusiya ilə miqrasiya əlaqələrində – 248 nəfər, Belarus Respublikası ilə əlaqələrdə –130 nəfər olmuşdur.

Son illərdə əhalinin miqrasiya intensivliyi xeyli aşağı düşmüs, ölkədən gedənlərin sayı nisbətən azalmışdır. Əvvəlki illərə nisbətən ölkəni tərk edənlərin bir qismi də geri qayıtmışlar. Ona görə əksər ölkələrlə miqrasiya əlaqələrində saldo müsbət kəmiyyətlər alır. Onun ən yüksək qiymətləri Rusiya ilə əlaqələrdə (3308 nəfər), həmçinin Ukrayna ilə əlaqələrdə (582 nəfərə yaxın) qeydə alınmışdır.

2011-2020-ci illərdə Belarus və Almaniyaya gedənlərin sayı çox olmuş və miqrasiya mənfi saldoya malik olmuşdur: Almaniya ilə –100 nəfər, Belarus ilə –157 nəfərdir.

Beləliklə, Azərbaycanın yaxın və uzaq ölkələrlə miqrasiya əlaqələrində MDB ölkələri qabaqcıl yer tutur. Onlar arasında Rusiya, Ukrayna və Belarus xüsusilə fərqlənir.

**Dissertasiyanın üçüncü fəsli** "Avropada miqrasiyaların nizamlanmasının əsas yolları və həyata keçirilən tədbirlər" adlanır. Bu fəsildə sosial-iqtisadi inkişaf səviyyəsinə görə Avropa ölkələri arasında olan fərqlər, iqtisadi inkişafla miqrasiya arasındakı əlaqə və təsir, miqrasiyaların tənzimlənməsi sahəsində Avropa ölkələri arasında əməkdaşlıq və bu əməkdaşlığın problemlərin həllində oynadığı rol, ayrı-ayrı ölkələrdə miqrasiyaların qanunvericilik bazasının miqrasiya proseslərinin tənzimlənməsindəki əhəmiyyəti araşdırılır.

İnkişaf etmiş ölkələr özünün strukturuna, sosial-iqtisadi potensialına görə kəskin fərqli xüsusiyyətlərə malikdir. Onların bir çoxu iqtisadi potensialına, əhalinin həyat səviyyəsinə görə yüksək pilləyə çatmışdır və davamlı inkişaf xarakterinə malikdir. Onların təsərrüfat sahələri daxili potensial hesabına əmək ehtiyatları ilə təmin edilir. Ona görə həmin ölkələrin əhalisi dünya miqrasiya axınlarında zəif iştirak edir. İnkişafda olan Asiya və Afrikanın əksər ölkələrində isə təbii artım yüksəkdir, iqtisadi inkişaf zəif templə inkişaf edir, iş yerlərinin sayı əmək qabiliyyətli əhalinin sayına nisbətən dəfələrlə azdır. Bu qrup ölkələrdə zəif iqtisadi potensial

demoqrafik potensialı saxlamaq qabiliyyətində deyildir. Ona görə ki, təsərrüfat strukturunda dağ-mədən sənayesi və kənd təsərrüfatının aparıcı mövqe tutması yeni iş yerlərinin açılması imkanlarını məhdudlaşdırır, gəlirlər azdır və əhalinin gündəlik həyat şəraiti, sosial-mədəni xidmətlər göstərilməsi kifayət səviyyədə deyildir. Nəticədə ölkələr daxilində miqrasiyalarda əhali kəndlərdən şəhərlərə üz tutur. Eyni zamanda xarici miqrasiyalar intensiv xarakter alır.

Dünyanın bəzi ölkələrində ali təhsil ocaqları yüksək maddi-texniki bazaya, kadr potensialına malikdir. Bu elm və təhsil mərkəzlərinin məzunlarının hazırlığı müasir dünya standartlarına cavab verir. Onlara Hindistan, Malayziya, Türkiyə, Braziliya, Pakistan, Çin, İndoneziya, Meksika, Əlcəzair, Misir və s. ölkələr daxil edilə bilər. Eyni zamanda bu ölkələr ilə yanaşı, digər ölkələrdən olan gənclər Avropa ölkələri, ABŞ, Kanada və digər immiqrasiya ölkələrindəki universitetlərdə təhsil aldıqdan sonra orada qalıb işləyirlər. Bu amil immiqrant qəbul edən ölkələrin iqtisadi inkişafına əhəmiyyətli təsir göstərir.

Ali təhsilli kadrların geri qalmış ölkələrdən axını onlar üçün çox ciddi problem kimi qalır. Bu proses əhalisinin sayı az olan ölkələrdə aydın şəkildə özünü göstərir və həlli getdikcə çətinləşir.

Miqrasiyaların tənzimlənməsi istiqamətində Avropa İttifaqı (Aİ) ölkələrində həyata keçirilən demoqrafik siyasətdə ölkələr arasında görülən tədbirlərin fərqləri uzun illər ərzində aradan qaldırılmışdır. Eyni zamanda bu istiqamətdə həyata keçirilən tədbirlərin vahid mərkəzdən idarə edilməsi onların səmərəliliyini artırmış olur.

Aİ məkanında xarici miqrasiya sahəsində müəyyən məhdudiyyətlər olsa da, daxili miqrasiyaların sərbəstliyi təmin edilir. Yarandığı ilk dövrlərdə Avropada inteqrasiya proseslərinin əsası 4 prinsipə görə qurulmuşdur: əmtəələrin, xidmətlərin, kapitalın və əhalinin sərbəst yerdəyişməsi. Bu amillər Avropada daxili miqrasiyaların intensiv xarakter alması ilə nəticələnmişdir.

1957-ci ildə imzalanmış Roma müqaviləsi görə Avropa ölkələrində əmək ehtiyatlarının miqrasiyasının sərbəst olmasını nəzərdə tuturdu. Əldə edilmiş razılaşmaya görə müqaviləyə qoşulan ölkələrdən işçilər, qulluqçular, sahibkarlar maneəsiz surətdə digərinə

keçə bilər. Bu dövrdə xarici miqrasiyaların böyük vüsət alması təhlükəsi olmadığına görə hər bir ölkə daxili qanunlar əsasında xarici miqrasiyaları nizamlayırdı və digər ölkələrdən immiqrantların axınlarının nizamlanması istiqamətində razılaşmalar olmamışdır. XX əsrin 60-cı illərinin sonunda gömrük razılaşmalarının formalaşması başa çatmış, birlik ölkələri daxilində vətəndaşların sərbəst hərəkət etmək hüququ tam olaraq fəaliyyət göstərmişdir[5,6].

1970-ci illərinin ortalarından başlayaraq Birliyə daxil olmayan ölkələrdən immiqrasiya axınlarının nizamlanması ölkələr arasında müzakirə mövzusuna çevrilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində 1985-ci ildə Avropa Komissiyası tərəfindən birlik daxilində vahid miqrasiya siyasətinin formalaşması üçün sənədlər qəbul edilmişdir. Bu sənədlərdə Birliyin sərhədləri daxilində viza siyasətinin koordinasiyası, miqrasiya nəzarətinin sadələşdirilməsi, digər ölkələrdən olan immiqrantların, ilk növbədə qaçqınların və sığınacaq axtaranların statusunun müəyyən edilməsi qaydaları əks olunurdu.

XX əsrin sonlarına yaxın Avropada miqrasiyaların nizamlanması sahəsində bəzi ciddi problemlər aydın şəkildə özünü göstərmişdir. Sosializm sisteminin dağılması, ölkələr arasında qeyri-bərabər inkişafın güclənməsi miqrasiya axınlarının intensiv xarakter almasına gətirib çıxardı. Onların böyük əksəriyyətinin istiqamətləndiyi region Qərbi Avropa idi. Nəticədə miqrasiya axınları iqtisadi, siyasi, demoqrafik inkişafa, ölkələrarası münasibətlərə ciddi təsir göstərən amilə çevrilirdi. Bunları nəzərə alaraq immiqrasiya axınlarının nizamlanması üçün daha ciddi təklif və tədbirlərin görülməsi zərurəti yarandı. Avropa İttifaqı daxilində xarici miqrantların sayının sürətlə artması onların cəmiyyətə uyğunlaşması və inteqrasiyası probleminin həll edilməsini, demoqrafik proseslərin strateji maraqlara uyğun tənzimlənməsini, miqrantların hüquqlarının qorunmasını, bu sahədə əməkdaşlığı zəruri edirdi.

---

[5] Internatinal Migration Report 2002. United Nations Population Division Department of Economic and Social Affairs. – New York, –2002. –p.1.

[6] Lucassen, J. eds. Migration, Migration History, History: Old Paradigms and New Perspectives. / J.Lucassen, L.Lucassen – Bern: Peter Lang. – 1997. – 220 p.

7 fevral 1992-ci ildə Maastrixtdə (Niderland) Avropa İttifaqı haqqında müqavilə imzalandı və bu sənəd 1993-cü ildən qüvvəyə mindi. Əldə edilmiş razılıq xarici sərhədlərə nəzarəti, immiqrasiya siyasətində ümumi qərarların verilməsini, miqrasiya axınlarının nizamlanmasını, bir çox məsələlərin həllinin ölkələrin daxili işi kimi saxlanmasını əhatə edirdi. Miqrasiyalara kvotaların tətbiq edilməsi, giriş vizalarının sayı, qeyri-leqal miqrasiyalarla mübarizə aparılması daxili vəzifələr kimi tanınırdı.

Aİ ölkələrinin qəbul etdiyi ən mühüm məsələlər sırasında qeyri-üzv ölkələrdən gələn immiqrantların qəbuluna ciddi məhdudiyyətlərin qoyulmasıdır. Ölkələr aşağıdakı məsələlərdə ümumi razılığa gəlmişlər: sığınacaqların verilməsi siyasəti, üzv ölkələrin xarici sərhədlərindən keçidin nizamlanması qaydaları, müvafiq nəzarətin həyata keçirilməsi, immiqrasiya siyasəti və digər ölkələrdən gələnlərə münasibət, Birlik ölkələrinə daxil olmaq və onların Aİ daxilində hərəkətinə nəzarət, digər ölkələrdən gələn vətəndaşların yaşaması şəraiti, iş yerləri ilə təminatı, ailə üzvlərinin gəlməsi və yerləşməsi, qeyri-leqallıqla mübarizə və onların qarşısının alınması istiqamətində tədbirlərin görülməsi[7].

Aİ ölkələrinə qaçqınların qəbul edilməsi və ya ölkələrdən çıxarılması zamanı qəbul edilmiş ümumi qaydalara əməl edilir. Onlara 1951-ci ildə qaçqınların statusu haqqında Cenevrə Konvensiyası və 1967-ci ildə qəbul edilmiş Protokol aiddir.

Xarici ölkələrdən gələn qaçqınlara sığınacaqların verilməsi 1990-cı ildə qəbul edilmiş Şengen Konvensiyası və 15 iyun 1990-cı ildə imzalanmış Dublin Konvensiyası (1997-ci ildən qüvvəyə minmişdir) əsasında həyata keçirilir.

1997-ci il Amsterdam razılaşmasına əsasən, “azad, təhlükəsiz və qaydalara əməl edilən” Avroməkan prinsipi qəbul olundu. Onun şərtlərinə görə, immiqrasiya, Aİ-nin xarici sərhədlərinin qorunması və sığınacaqların verilməsi Mərkəzi İdarəetmə orqanlarına verildi. Bu tədbirlər birgə qərarların qəbul edilməsini asanlaşdırdı, Aİ institutlarının səmərəli fəaliyyətini yüksəltmiş oldu.

---

[7] Ионцев В. Международная миграция населения: теория и история изучения / В.Ионцев. – М.:МАКС – Пресс, – 1999. – С. 85-116.

1999-cu ildə qəbul edilmiş "Tampere Vaxiləri" adı sənəddə Aİ ölkələri ərazisində siyasi sığınacaqların verilməsində vahid sistemin tətbiqi və qeyri-leqal miqrasiyalar, insan alveri ilə mübarizə aparılması öz əksini tapmışdır. Eyni zamanda immiqrantların hüquqlarının qorunması, leqal şəkildə yaşayan xaricilərin yerli seçkilərdə iştirak etməsinə icazə verilməsi qərarı qəbul edilmişdir.

Avropa İttifaqında miqrasiya proseslərinin idarə edilməsində müxtəlif institutlar və orqanlar iştirak edir. Bunlar miqrasiya və deportasiyalar, sığınacaqların verilməsi, sərhədlər, polis əməkdaşlığı və s. kimi sahələrdə fəaliyyət göstərən qruplardır. Yuxarı pillədə immiqrasiya, sərhədlər və sığınacaqlar üzrə Strateji Komitə (SCIFA –Strategic Committee on Immigration, Frontiers and Asylum) fəaliyyət göstərir. Daha yuxarı səviyyədə, üçüncü pillədə üzv ölkələrin nümayəndələrinin daimi komitəsi (COREPER – Committee of Permenant Representatives) yaradılmışdır. Ən yüksək səviyyədə Aİ-nin qanunverici orqanı olan Daxili İşlər və Ədliyyə Nazirləri Şurası dayanır. Bu Şura Maastrixt müqaviləsi çərçivəsində yaradılmışdır[8].

2014-2016-cı illərdə miqrasiya axınlarının güclənməsindən və miqrasiya böhranının yaranmasından sonra region ölkələri təhlükəsizliyin mühafizəsi üçün müstəqil olaraq tədbirlər görməyə başladı.

Şimali Avropa ölkələrində XX əsrin sonu, XXI əsrin əvvəllərində miqrasiya qanunvericiliyi nisbətən yumşaq və cəlbedici olduğuna görə, həm Aİ daxili miqrantların, həm də xarici miqrantların buraya axını ildən-ilə güclənmişdir. Norveç, İsveç, Finlandiya, Danimarkada sosial müdafiə sistemi yüksək inkişaf etmişdir. 2016-cı ildən başlayaraq region ölkələrinin hamısında ciddi sərhəd nəzarəti qoyulmuşdur və qaçqın axınının qarşısı alınmışdır. Miqrantlar üçün ayrılan sosial müdafiə xərcləri azaldılmışdır.

[8] Одиссер С. Объединение Европы. Прошлое и настоящее / С. Одиссер. – Гамбург: Дом ученых, – 2013. – 310 с., s.132.

Böyük Britaniyaya gələn miqrantların sayının nizamlanması üçün ildə 100 min nəfərin qəbul edilməsi nəzərdə tutulur. Mövcud olan miqrasiya qanunvericiliyinə görə Aİ ölkələrindən gələn miqrantlar ölkəyə gəlməzdən əvvəl İş haqqında rəsmi təklif almalıdırlar.

Böyük Britaniyada 4 il işlədikdən sonra onlara vergi güzəştləri verilə bilər. Ölkədə 6 ay işsiz qaldıqdan sonra miqrantlar deportasiya olunur[9].




**Şəkil 4**. 2015- ci illrədə yerləşdiyi ölkələr üzrə qaçqınların ümumi sayı (Avrostatın məlumatına görə)

Almaniyada miqrasiya proseslərinin nizamlanması üçün "İmmiqrasiyalara nəzarət və məhdudlaşdırma, Aİ vətəndaşlarının və xaricilərin yaşaması və inteqrasiyasının nizamlanması haqqında Qanun" qəbul edilmişdir. Burada Almaniya

---

[9] Небренчин В.Р. Иммиграционная политика Великобритании на современном этапе /В.Р.Небренчин, А.В.Яшкин //Государственное регулирование миграционных процессов и международная политика как факторы обеспечения стабильности в современном мире: российский и зарубежный опыт, – М., – 2015. – с. 151-153., s.151-153].

immiqrasiya ölkəsi olaraq qəbul edilir, onun iqtisadi və strateji maraqlarına uyğun olaraq xarici vətəndaşların seçilməsi mütləq hal kimi götürülür. Ona görə də ölkənin tələbatına uyğun sayda və təhsilə malik əməkçi miqrantların qəbulu, xarici tələbələrin cəlb edilməsi, ölkədə investisiya yatırmaq istəyənlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq arzusunda olanlar, dövlətin dilini mükəmməl bilənlərə üstünlük verilməsi vacib sayılır.




**Şəkil 5.** 2015-ci illərdə vətəndaş olduğu ölkələr üzrə qaçqınların ümumi sayı (Avrostatın məlumatına görə)

Fransada qəbul edilmiş, qeyri-leqal miqrasiya ilə mübarizə, leqal miqrantların cəmiyyətə uyğunlaşması haqqında Əsasnaməyə görə, bu xarici miqrantların sosial müdafiəsini, ölkənin dilinin və qanunlarını öyrənməsini nəzərdə tutan qaydalar müəyyənləşmiş, xarici vətəndaşlara ölkədə bir il müddətində qalmaq hüququ verilmişdir. Həmin ildə immiqrantlara münasibət və xarici vətəndaşların Fransada qalması haqqında Qanun qəbul olunmuş, burada qeyri-leqal miqrasiyalarla mübarizə məsələləri öz əksini tapmışdır. Ölkənin iqtisadi maraqlarına uyğun miqrasiya siyasəti həyata keçirilməsi ilə yanaşı, əhalinin azalmasının qarşısının alınması vacib məsələ kimi qarşıya qoyulmuşdur.

İtaliyada 2002-ci ildə miqrasiyalar haqqında qanunlara edilən dəyişikliklər miqrantların ölkəyə qəbulunu və onların yaşamaq hüququnu çətinləşdirmişdir. Xarici vətəndaşların ölkəyə gəlməsi və yaşamasına daxili işlər nazirliyi icazə verir və Aİ qanunları nəzərə alınmaqla həyata keçirilir.

Beləliklə, Avropada miqrantların gəlişi, sərhədlərə nəzarət, miqrantlara hüquqlarının tanınması və s. məsələlərdə regionun ümumi maraqları nöqteyi-nəzərindən birgə strategiya ilə çıxış edirlər, eyni zamanda ayrı-ayrı ölkələr miqrasiyaların nizamlanması və miqrantların cəmiyyətə uyğunlaşdırılması ilə bağlı milli səviyyələrdə qərarlar qəbul edirlər.

## NƏTİCƏ

1. Qərbi Avropa ölkələrinə beynəlxalq əhali axınlarına sərhədlərin açılması, miqrasiya proseslərinin maneəsiz şəkildə getməsinə imkan verən coğrafi məkanın genişlənməsi, ali təhsil almaq üçün gəlmək istəyən əcnəbilər üçün cəlbedici olma, yüksək həyat şəraitinin mövcudluğu, ixtisasa uyğun işləmək imkanları, regionun böyük ölkələrində geri qalmış regionların mənimsənilməsi ilə əlaqədar miqrantlara ehtiyacın və s. kimi amillər təsir göstərir.

2. Mühacirlərin çoxu Almaniyaya, Fransaya və İtaliyaya, digər Mərkəzi Avropa ölkələrinə gəlib yerləşir, bu ölkələrdə birdəfəlik qalmağa üstünlük verirlər. Almaniya, İtaliya kimi ölkələrdə əhalinin sayının artması miqrasiyanın hesabına baş verir. Böyük Britaniyada əhali artımının 55%-i təbii artım, 45%-i isə xarici miqrasiyanın hesabına getmişdir. Əhalinin sayının nisbətən sürətlə artmaqda davam etdiyi Fransada isə əhalinin sayının artmasında təbii artım miqrasiyadan daha çox rol oynayır. Rusiya Federasiyasında miqrantların immiqrasiyası azalmağa doğru gedir.

3. Avropa ölkələrinin bir qrupunda (Şərqi və Cənubi Avropa) təbii artım mənfi qiymət alır və üstəlik əhalinin güclü emiqrasiyası müşahidə olunur, bu ölkələrdən insanlar əsasən

Qərbi Avropanın yüksək inkişaf etmiş ölkələrinə köçür. Ona görə əhalinin sayı son onilliklərdə azalmağa doğru getmişdir. Əhalinin sayının azalması Rumıniya, Yunanıstan, Portuqaliya, Litva, Bolqarıstan, Latviya, Litva, Moldova, Bosniya və Hersoqovina, Kosovo kimi ölkələrdə daha intensiv baş vermişdir.

4. 2014-cü ildə 10 yeni ölkə Mərkəzi və Şərqi Avropa ölkəsinin Aİ-yə daxil olması sərhədlərin genişlənməsinə, onlara nəzarət mexanizminin zəifləməsinə səbəb olmuşdur. Siyasi, iqtisadi və sosial münasibətlərin gərgin olduğu regionlara yaxınlıq, əhalinin miqrasiya intensivliyinin artması bu prosesə xeyli təkan vermiş oldu. Son illərdə Yaxın və Orta Şərqdə, Şimali Afrikada baş verən hadisələr Avropaya miqrasiya axınını gücləndirmiş, miqrantların əsas hissəsini Almaniya qəbul etmişdir (şəkil 4, şəkil 5).

5. Qərbi Avropaya intensiv xarakter almış miqrasiya nəticəsində miqrantların yerləşdirilməsi, onların mənzillə, sosial xidmətlərlə təminatında ciddi problemlər yaranmışdır. Problemin həll edilməsi üçün Aİ ölkələrinin miqrasiya mənbəyi olan ölkələrə iqtisadi-siyasi dəstək göstərməsi, həmçinin miqrasiya proseslərinin nizamlanması, qeyri-leqal miqrasiya probleminin həlli, transmilli cinayətkarlıqla mübarizə istiqamətlərində onlarla daha yaxından əməkdaşlıq edilməsi zərurətə çevrilmişdir.

6. Azərbaycandan xarici ölkələrə, o cümlədən Avropa ölkələrinə gedənlər gələnlərdən çox olmuş, son illərdə gedənlərin sayı nisbətən azalmış, ölkəni tərk edənlərin bir qismi geri qayıtmışdır. Ölkədə islahatların aparılması və yeni iş yerlərinin yaradılması Azərbaycanla Şərqi Avropanın postsovet ölkələri arasında əksər illər üzrə gələnlərin gedənlərdən üstün olmasına səbəb olmuşdur.

7.Hazırda Avropa məkanında immiqrasiya siyasətinin nizamlanmasının əsas hüquqi mənbələri və bazasını 1985-ci və 1990-cı illərin Şengen müqavilələri, 1990-cı il Dublin Konvensiyası, Aİ haqqında Maastrixt razılaşması, Amsterdam razılaşması kimi rəsmi sənədlər təşkil edir. Bu sənədlər miqrasiya axınlarının da daxil olduğu ədliyyə və daxili siyasət sahələrində

Aİ-nin institutsional strukturlarının və orqanlarının fəaliyyətini müəyyən edir.

## DİSSERTASİYA MÖVZUSU ÜZRƏ ÇAP OLUNMUŞ ELMİ İŞLƏRİN SİYAHISI


1. Məmmədov İ.B. Azərbaycan Respublikasında miqrasiyanın əsas istiqamətləri və nizamlanması problemləri "Əmək, məşğulluq və sosial müdafiənin aktual məsələləri" mövzusunda beynəlxalq elmi-pratiki konfransın materialları// Bakı, 2017, s.226-229 (Eminov Z.N., Əliyeva L.İ., Hüseynova F.H. ilə birlikdə)
2. Məmmədov İ.B. Avropaya əhalinin miqrasiyasının əsas istiqamətləri. "İnsan və ətraf mühit" münasibətləri mövzusunda elmi konfransın materialları.//- Bakı-2017, XX cild s.486-489.
3. Məmmədov İ.B. Postsovet məkanından Avropaya miqrasiya axını. "BDU Xəbərləri", Təbiət elmləri seriyası.//- Bakı, № 3. 2018, s.110-120.
4. Məmmədov İ.B. Azərbaycanda ölüm göstəricilərinin demoqrafik inkişafa təsiri. "Azərbaycanda sosial müdafiə sistemin inkişafı-dünən, bu gün, sabah" mövzusunda beynəlxalq konfrans //-Bakı 2019. s.337-340. (Eminov Z.N., Bağırova M.İ., Abasova L.M. ilə birlikdə)
5. Məmmədov İ.B. Avropada demoqrafik inkişafın əsas meylləri və bu prosesdə miqrasiyaların rolu. "Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri" // - Bakı 2019, № 2. s.86-93.
6. Мамедов И.Б. Роль миграционных процессов в демографическом развитии в Европейских странах. Крымского Федерального Университета имени В.И.Вернадского. География. Геология Научный журнал Симферополь, 2020 Том 6 (72). № 2.s.93-105.
7. Мамедов И.Б. Рост различий в уровне социально-экономического развития стран мира и миграционные процессы. Киевский Национальный Университет им. Т.Шевченко География та туризм Научный журнал выпуск 57 Киев – 2020. s.35-41.
8. Məmmədov İ.B. Avropa ölkələrində miqrasiya proseslərinin

qanunvericilik bazası. The XVI International Scientific Symposium "World Science: problems and innovations" dedicated to the 115th anniversary of Mahammadhuseyn Shahriyar uly 26 2021, East Lansing, Michigan / USA. s. 202 - 206. ( Cəfərova G.C. ilə birlikdə ).
9. Məmmədov İ.B. Müasir dövrdə Avropada miqrasiya proseslərinin sosial-demoqrafik inkişafa təsiri. The XVII International Scientific Symposium "KARABAG: WAY TO VICTORY"//- Coteborq/Sweden. 28 avqust 2021, s.378-381.
10. Məmmədov İ.B. Dünyada baş verən ictimai-siyasi vəziyyətin miqrasiya proseslərinə təsiri. The XVIII International Scientific Symposium "The past and the Future of the Turkic world"// -Nur-sultan, Kazaxhstan. 25 september 2021, s 257-261.
11. Məmmədov İ.B. Böyük Britaniyada miqrasiya proseslərinin demoqrafik inkişafa təsiri. The XVIII International Scientific Symposium "Evrope and Asia a millenial neighborhood", //-Kars, Turkey, 23 October 2021. s 232-234.
12. Məmmədov İ.B. Qarabağ regionunda mədəni turizmin inkişaf problemləri. "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərdə davamlı inkişafın coğrafi problemləri"// - Bakı. 24 noyabr 2021-ci il.s 259-263.( Cəfərova G.C., Zülfüqarova S.M. ilə birlikdə)
13. Məmmədov İ.B. Cənubi Avropa ölkələrində miqrasiya və onun demoqrafik inkişafa təsiri. Bilimsel Araştırmalar. Tezis və məqalələr toplusu/ Scientific Researches/ Collection of theses and articles/. Ankara/ Turkey, 25 dekabr 2021.s.127-129.
14. Məmmədov İ.B. Qərbi Avropa ölkələrində miqrasiya proseslərinin əhalinin yaş-cins tərkibinə təsiri. SDU-nun elmi əsərləri/ Sosial və humanitar elmlər bölməsi – Sumqayıt : - 2021, 17 №4 s. 54-58.(Cəfərova G.C. ilə birlikdə).

15. Məmmədov İ.B. Avropa ölkələrində əhalinin məşğulluq xüsusiyyətləri. Naxçıvan Universitetinin Elmi əsərləri Naxçıvan: 2021, № 4 (23) s.237-243.
16. Məmmədov İ.B. Almaniyada miqrasiyanın sosial-demoqrafik inkişafa təsiri. LDU-nun Elmi xəbərləri/ Riyaziyyat və təbiət elmləri bölməsi, Lənkəran:- 2021, № 2 s.24-29.
17. Məmmədov İ.B. Avropa ölkələrində miqrasiyanın tənzimlənməsi yolları. Pedaqoji Universitetin Xəbərləri. //Humanitar, ictimai, pedaqoji-psixoloji elmlər seriyası, Bakı:-2021, C.69, № 4, s.74-82.

Dissertasiyanın müdafiəsi 24 мая 2024-cü il tarixində Saat 11:00 Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsi nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1148, Bakı, Akademik Zahid Xəlilov küçəsi-33, əsas bina.

Dissertasiya ilə Bakı Dövlət Universitetin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetin rəsmi internet saytında yerləşdirilmişdir .

Avtoreferat ______ ________________ 2024-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17. 04. 2024

Kağızın formatı:A5

Həcm: 39038

Tiraj:100